

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 218 (21.879)

17 noyabr 2017-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Qazaxıstan Respublikasının Baş nazirinin birinci müavini Askar Mamini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə beynəlxalq tədbirlərdə keçirdikləri görüşləri xatırladaraq, Qazaxıstan Prezidentinin Azərbaycana son rəsmi səfərini əlaqələrimizin inkişafında mühüm hadisə kimi dəyərləndirib və bu görüşlər zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını deyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonuna gəlib. Prezident İlham Əliyev həmin gün Abşeron Olimpiya-İdman Kompleksinin, Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunan 5 nömrəli tam orta məktəbin açılışlarında iştirak edib.

Dövlətimizin başçısı noyabrın 16-da Abşeron rayonunda "Zəhmət-Ruzi" MMC-nin fəaliyyəti ilə tanış olub.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Kubanın ölkəmizdəki səfiri ilə görüşüb



Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kuba Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alfredo Fidel Nieves Portuondo ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamlayaraq onu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vətəni olan Naxçıvanda görməkdən məmnunluğunu ifadə edib. Ulu öndərin Kuba inqilabının rəhbəri Fidel Kastro ilə yaxın əlaqələrini diqqətə çatdıran Ali Məclisin Sədri ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək verdiyini və ikitərəfli əlaqələrin müxtəlif sahələr üzrə inkişaf etdiyini bildirdi. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Kuba arasında ticarət əlaqələrinin olduğunu qeyd edən Ali Məclisin Sədri təhsil sahəsində əməkdaşlığın qurulmasının, xüsusilə tütünçülüyün inkişafı istiqamətində təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini vurğuladı.

Ulu öndərin vətəni Naxçıvanda olmaqdan şərəf duyduğunu bildirən Alfredo Fidel Nieves Portuondo göstərilən xoş münasibətə görə minnətdarlıq etdi. Səfir Naxçıvanın tarixi, mədəniyyəti və müasir inkişafı haqqında məlumatlı olduğunu diqqətə çatdırdı, muxtar respublikanın bütün çətinliklərə baxmayaraq inkişaf etməsinin nümunə gücündə olduğunu və əməkdaşlıq üçün geniş imkanlar açdığını bildirdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas ilə görüşüb.

Ali Məclisin Sədri Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrdə, xüsusilə təhsil sahəsində həyata keçirilən layihələrdə Naxçıvan Muxtar Respublikasının iştirakını diqqətə çatdırdı, Naxçıvan Dövlət Universitetinin tələbələrinin Avropanın müxtəlif universitetlərində təhsillərini davam etdirdiyini bildirdi. Avropa İttifaqı tərəfindən muxtar respublikada həyata keçirilən birgə tədbirlərin əhəmiyyətini qeyd edən Ali Məclisin Sədri bundan sonra da əlaqələrin inkişafında səylərin göstəriləcəyini vurğuladı, bu sahədəki fəaliyyətinə görə Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbərinə təşəkkür etdi.

Naxçıvana ilk dəfə səfər etdiyini və burada olmaqdan məmnunluğunu bildirən Kestutis Yankauskas Avropa İttifaqı ilə muxtar respublika arasında əlaqələrin inkişafında və ikitərəfli münasibətlərin genişləndirilməsində maraqlı olduqlarını vurğuladı.

Görüşdə əlaqələrin gələcək inkişafı barədə fikir mübadiləsi aparıldı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Muxtar respublikada standartların tələbləri qorunur

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi oktyabr ayında istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartların tələblərinə uyğunluğunu diqqətdə saxlamışdır.***



Ay ərzində təsərrüfat subyektlərinə verilmiş 168 uyğunluq sertifikatı, 1 sınaq laboratoriyasının akkreditasiya attestatı, xüsusi razılıq alınması üçün 2 təsdiqedici sənəd dövlət reyestrində qeydiyyata alınmışdır. Bu dövrdə yerli istehsal məhsullarının keyfiyyətinə nəzarət məqsədilə 159 qida istehsalı müəssisəsində maarifləndirmə xarakterli görüş keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Məhsul nümunələrinin 109 halda laboratoriya analizləri aparılmış və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində Ordubad rayonunun Sabirkənd kəndində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüş keçirilmişdir. Görüş zamanı 7 təsərrüfat subyektindən götürülmüş bal nümunələrinin laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmiş, 1 bal məhsulu sertifikatlaşdırılmışdır.

Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli qida məhsulları ilə təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılmasına diqqətin artırılması barədə verilmiş tapşırıqların icrası istiqamətində 32 orta məktəb, 6 təhsil və 13 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 7 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər keçirilmişdir. 98 bərbərxana və 25 gözəllik salonunda da maarifləndirmə xarakterli monitorinq aparılmış, 105 ictimai iaşə və xidmət sahəsinə baxış olmuş, 26 bərbərxanada və 8 gözəllik salonunda aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır.

Xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması məqsədilə komitənin müvafiq işçi qrupu müəssisələrdə olmuş və istehsal olunan məhsulların ixrac olunacaq ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, zərurət olduqda ixrac olunan məhsulların partiyalarla sertifikatlaşdırılmasının təmin edilməsi, təsərrüfat subyektlərinə məxsus əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı vasitəsilə beynəlxalq mühafizəsi üçün davamlı tədbirlərin görülməsi istiqamətində işlərə başlanılmışdır.

**Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti**



*17 noyabr-Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günüdür*

# Dövlət Bayrağının qəbulu müstəqillik tarixində mühüm səhifədir

***1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin ilk iclası milli dirçəliş tariximizdə mühüm əhəmiyyət kəsb edir. Həmin dövrdə ölkəmizdə xalqın milli iradə və əzmini, birliyini nümayiş etdirən milli azadlıq hərəkatı geniş vüsət almışdı. Lakin Azərbaycana rəhbərlik edənlər öz hakimiyyətlərini və imperiyanın maraqlarını milli maraqlardan üstün tutduqları üçün xalqın dirçəlişini mütərəqqi istiqamətə yönəldə bilmədilər. Xalqın müstəqillik arzularını, dövlətçiliyimizin dirçəliş ideyasını gerçəkləşdirə biləcək yeganə milli lider isə yalnız ulu öndər Heydər Əliyev idi.***

Ümummilli liderimizin 1990-cı ilin iyulunda Naxçıvana qayıdışı milli azadlıq uğrunda mübarizədə mühüm mərhələ təşkil etdi. Naxçıvandan başlanan milli dirçəliş prosesi bütünlükdə Azərbaycan siyasi mühitini əhatə etməyə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Naxçıvana qayıdan ulu öndər milli oyanış və dirçəlişin əsasını qoymaqla nəinki bu bölgəni, bütün Azərbaycanı real təhlükədən xilas etdi. 1990-cı il noyabrın 17-də ***“Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövrlərində xalqın dərdinə şərik olmaqla vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm”***, – deyən ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçən Ali Məclisin sessiyasında Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji mahiyyət daşıyan tarixi qərarlar qəbul edildi. Həmin dövrü xarakterizə edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Ulu öndər Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi qəbul olundu”.***

Sessiyada “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında” Qərarın qəbul olunması, SSRİ kimi imperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından “sovet”, “sosialist” sözlərinin çıxarılması çox böyük cəsarət tələb edirdi. Bununla, ümummilli liderimiz əslində milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addımını atdı. Ulu öndərimizin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Dahi şəxsiyyətin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi Qərarda deyilirdi:

*“Naxçıvan Muxtar Respublikasının Ali Məclisi* **qərara alır:**

*1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin”.*

Bundan sonra yeni qəbul olunmuş bayraq zala gətirilmiş, beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi ucaldılmışdır.

Beləliklə, milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına məhz 17 noyabr 1990-cı ildə ulu öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanmışdır. O dövrdə ulu öndər Heydər Əliyevin Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqillik tariximizdə mühüm mərhələ təşkil edir.

Müstəqilliyimizin bərpasından keçən dövr ərzində ölkəmizdə milli atributlarımıza böyük sevgi ilə yanaşılmışdır. Müstəqilliyimizin, dövlətçiliyimizin və milli dəyərlərimizin daşıyıcısı olan üçrəngli bayrağımıza ümumxalq sevgisinin formalaşdırılması Heydər Əliyev siyasi yolunun əsasını təşkil edir. Bu yolun uğurla davam etdirilməsinin nəticəsidir ki, 2007-ci ildə paytaxt Bakı şəhərində Bayraq Meydanı yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildiyi gündə – 2009-cu il noyabrın 17-də imzaladığı tarixi Sərəncam ilə təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə, Naxçıvanda formalaşdırılan tarixi dövlətçilik ənənələrinə dövlət səviyyəsində olan diqqət və ehtiramın ən yüksək səviyyədə göstəricisidir.

Çoxəsrlik dövlətçilik tariximizdə qəbul olunmuş rəmzlərin, rəsmi şəkildə istifadə edilmiş bayraqların bütöv bir sistem halında tədqiq edilməsi milli ideologiyamızın tarixi köklərini və mahiyyətini müəyyən etmək baxımından mühüm əhəmiyyətə malikdir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il avqustun 22-də imzaladığı Sərəncam tarixi əhəmiyyət daşıyır. Sərəncamın icrasına uyğun olaraq Naxçıvan şəhərində yaradılan və 2014-cü ildə Azərbaycan dövlətçiliyi üçün tarixi əhəmiyyət kəsb edən bir gündə – noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasiminin keçirilməsi ulu öndərimiz Heydər Əliyevə yoluna sədaqətin təzahürü idi. Dövlət Bayrağı Meydanı və Muzeyinin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır”.***

Bu gün Naxçıvan şəhərindəki Bayraq Muzeyi dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna rol oynayır. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” Qərar və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muzeyə təqdim olunmuş Azərbaycan Respublikasının Dövlət Himninin mətninin və dövlət gerbinin təsvir olunduğu xatirə hədiyyələri, tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanları ekspozisiyada yerləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

***Üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir. Bu gün qədim diyarın sakinləri noyabrın 17-ni Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd etməklə bütün dünyada Azərbaycan dövlətinin və xalqının imzasını əbədi təsdiq edən üçrəngli bayrağımızın qürurunu yaşayır.***

**Mehriban SULTAN**

# Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü münasibətilə tədbirlər keçirilib



***Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 17 noyabr – Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib.***

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Mirqiyas Rüstəmov tədbiri giriş sözü ilə açıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin, Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədovun çıxışları olub. Çıxışlarda qeyd edilib ki, 17 noyabr 1990-cı ildə ulu öndərimizin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində dövlətçiliyimizin, müstəqilliyimizin bərpası üçün çox mühüm qərarlar qəbul edilib. Muxtar respublika rəhbərinin “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Tədbirin bədii hissəsində Şərur Rayon Mədəniyyət Evinin Şərur Xalq Yallı Ansamblının kollektivi tərəfindən xalq yallılarımız ifa edilib, uşaqlar tərəfindən bayrağımıza həsr olunan şeirlər bədii qiraət olunub.

**Səbuhi HÜSEYNOV**

***AMEA Naxçıvan Bölməsində “Üçrəngli bayrağımızın əbədi qayıdış günü” mövzusunda tədbir keçirilib.***



Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Gününə həsr olunan tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək 17 noyabr 1990-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Ali Məclisində ucaldıldığını bildirib, müstəqilliyimizin rəmzi olan bayrağımızın qorunması və mühafizəsi ilə bağlı görülən işlərdən danışıb.

Daha sonra İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımovun “Üçrəngli bayrağımızın əbədi qayıdış günü” mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın Dövlət Bayrağı və digər dövlət rəmzlərinə olan qayğısı həmişə ölkəmizdə ön planda tutulmuş, uğurla davam və inkişaf etdirilmişdir. Bu istiqamətdə görülən tədbirlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda Dövlət Bayrağı Meydanının yaradılması haqqında imzaladığı Sərəncam Dövlət Bayrağına hörmət və ehtiramın yüksək ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması, eləcə də 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi Naxçıvanda dövlət atributlarına münasibətin ifadəsidir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli və Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov çıxış edərək Dövlət Bayrağımızın dünya azərbaycanlılarının mənəvi-siyasi və mədəni birliyinin, vahidliyinin, bölünməzliyinin simvolu olduğunu vurğulayıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsidir

# Naxçıvanda tələbə-gənclər davamlı dövlət qayğısı ilə əhatə olunub



***1996-cı ildən etibarən hər il noyabrın 10-17-si ölkəmizdə Beynəlxalq Tələbə-Gənclər Həftəsi kimi qeyd olunur.***

Hər bir ölkənin perspektiv inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi gənc nəslin intellektual inkişafından və cəmiyyətin aparıcı üzvlərinə çevrilməsindən asılıdır. Azərbaycanda dövlət gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində dahi şəxsiyyət sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlamışdır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan gəncliyinə müraciətlə demişdir: ***"Siz Azərbaycanın bu günü və gələcəyisiniz, sizin üzərinizə böyük vəzifələr düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, inkişaf etdirənlərisiniz, biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycan torpağını yaşatmaq, inkişaf etdirmək üçün hazır olun".***

Azərbaycan müstəqillik qazandıqdan sonra gənclərlə iş intensiv xarakter almış, bu sahədə zəngin qanunvericilik bazası və gənclər siyasətini həyata keçirən dövlət orqanları yaradılmış, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Sonrakı dövrlərdə də ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün ardıcıl tədbirlər görülmüş, "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Bədən tərbiyəsi və idman haqqında" qanunlar qəbul edilmişdir. Bu gün ölkəmizdə gənclərlə iş "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu və 20-yə yaxın normativ-hüquqi aktla tənzimlənir.

Bu gün dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizin bütün bölgələrində gənclərin hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür, elm və təhsil ocaqları, gənclər evləri, idman kompleksləri tikilib istifadəyə verilir. Bunun nəticəsidir ki, bugünkü Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellektli toplum kimi yetişir, beynəlxalq miqyaslı yarış və tədbirlərdə ölkəmizi layiqincə təmsil edir.

Naxçıvan Muxtar Respublikasında da dövlət gənclər siyasəti uğurla davam etdirilir, gənclər siyasətinin bütün istiqamətləri üzrə dövlət proqramları icra olunur. Gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Son illər muxtar respublikada təhsil müəssisələri üçün yüzlərlə binalar tikilmiş, olimpiya-idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması haqqında 2012-ci il 29 mart tarixli fərmanları muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Qeyd olunan fərmanlarla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı" təsis edilmiş, Naxçıvan şəhərində Gənclər Mərkəzi inşa olunmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun fəaliyyəti təmin edilmişdir. Bu da gənclərin hərtərəfli inkişafı, müxtəlif layihələrin təşəbbüskarı kimi çıxış etməsi, asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir.

Muxtar respublikamızda gənclərin asudə vaxtının səmərəli təşkili, yaradıcılıq potensialının üzə çıxarılması və fiziki inkişafı daim diqqət mərkəzindədir. Son dövrlər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, stadionların, süni örtüklü mini-futbol meydançalarının, orta məktəblərdə idman zallarının və sadə tipli idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikamızda idman sahəsinə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu ilin ötən dövrü ərzində muxtar respublikada yerli və beynəlxalq yarışlar, turnirlər təşkil edilmiş, gənclər və idman sahəsində iki yüzdən çox tədbir keçirilmiş və bu tədbirlərdə 10 mindən artıq gənc iştirak etmişdir. Keçirilən tədbirlər gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi, asudə vaxtının səmərəli təşkili sahəsində mühüm əhəmiyyət daşıyır. Təkcə onu qeyd etmək kifayətdir ki, muxtar respublikanın gənc idmançıları 2017-ci ilin müvafiq dövrü ərzində Azərbaycan birinciliklərində 100, Dünya birinciliyində 2, Asiya çempionatında 2, Avropa çempionatında 1, beynəlxalq turnirlərdə 81, IV İslam Həmrəyliyi oyunlarında 1 medal qazanmışlar.

Naxçıvan Muxtar Respublikasında aparılan gənclər siyasətinin nəticəsidir ki, Naxçıvan tələbə-gənclərinin səsi dünyanın tanınmış universitetlərindən gəlir. Bu gün yüzlərlə naxçıvanlı tələbə-gənc Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Almaniya, Türkiyə, Cənubi Koreya, Ukrayna və Rusiya Federasiyasının aparıcı ali məktəblərində təhsil alaraq gələcəyin mütəxəssisləri kimi yetişirlər. Göstərilən diqqətin nəticəsidir ki, bu gün muxtar respublikada məşğul əhalinin yarıdan çoxunu gənclər təşkil edir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali məktəblərdə təhsil alan tələbə-gənclərin milli dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ruhunda yetişib formalaşması üçün bu təhsil ocaqlarında genişmiqyaslı tədbirlər keçirilir. Bu il də Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi "10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsi"nin qeyd olunması məqsədilə birgə Tədbirlər Planı hazırlayıb həyata keçiriblər.

Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində fəal iştirak edir. Gənclərimizin qarşısında idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan nailiyyətlərlə yanaşı, həm də dövlətçilik ənənələrini daim uca tutmaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyümək kimi müqəddəs vəzifələr durur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır".***

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# "Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsi üzrə seminar təşkil edilib



***Noyabrın 16-da Naxçıvan şəhərindəki "Təbriz" otelində Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyi və Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən keçirilən "Azərbaycanda Miqrasiya və Sərhəd İdarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsi üzrə seminara başlanılıb.***

Tənzimlənməyən miqrasiya ilə mübarizəyə dair təcrübələrin bölüşülməsi üzrə keçirilən seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Şahin Nəbiyev açaraq tədbirin əhəmiyyəti haqqında danışıb, miqrasiya prosesinin tənzimlənməsində beynəlxalq əməkdaşlığın mühümlüyünü qeyd edib.

Seminarın birinci günü BMqT-nin Azərbaycandakı səfiri Serhan Aktoprak, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestuti Yankauskas təhlükəsiz, qaydalı və tənzimlənməyən miqrasiyanın bu gün üçün əhəmiyyətindən danışıblar. Qeyd edilib ki, bu layihə tərəfdaşlarla birgə həyata keçirilir və bununla sərhəd idarəçiliyinin gücləndirilməsinə çalışılır.

Bildirilib ki, layihənin spesifik məqsədləri yeni viza rejiminin və readmissiya proseslərinin idarə edilməsi üçün səmərəli mexanizmlərin yaradılması və inkişaf etdirilməsi istiqamətində köməklik göstərilməsi, səmərəli miqrasiya idarəçiliyi məqsədilə qanunvericilik bazasının və instisional potensialların gücləndirilməsi, o cümlədən müvafiq təşkilatlar tərəfindən göstərilən xidmətlərin keyfiyyəti və səmərəliliyinin, həmçinin idarələrarası əməkdaşlığın səviyyəsinin artırılmasıdır. Bundan başqa, adıçəkilən layihənin məqsədləri sırasında texniki təkmilləşdirmə və avadanlıqların müasirləşdirilməsi vasitəsilə sərhəd nəzarəti və yoxlamaları prosedurlarının keyfiyyətini artırmaqla inteqrasiya edilmiş sərhəd idarəçiliyi üçün milli potensialları gücləndirmək də vardır.

Sonra BMqT-nin Qlobal miqrasiya data analizi mərkəzinin nümayəndələri Julia Black və Thomas Mertzin, qurumun Vyanadakı Regional ofisinin əməkdaşı İvona Todorovskanın təqdimatları olub. Təqdimatlarda təhlükəsiz, qaydalı və tənzimlənən miqrasiya, tənzimlənməyən miqrasiyanın çoxsaylı istiqamətləri, belə miqrasiyaya dair məlumatların toplanması ilə bağlı dair çətinliklər haqqında söhbət açılıb, izahlar verilib.

Günün ikinci yarısında "Təhlükəsizliyin və insan hüquqlarının tarazlaşdırılması: Tənzimlənməyən miqrasiyaya dair siyasəti formalaşdıran zaman hüquqlara əsaslanan yanaşma" mövzusunu əhatə edən təqdimatlar olub. Fransanın Gürcüstandakı səfirliyinin nümayəndəsi Bruno Balduc "Fransada tənzimlənməyən miqrasiya siyasəti", Rumıniya Daxili İşlər Nazirliyinin nümayəndəsi Andreea-Adela Vulcanescu "Rumıniyada tənzimlənməyən miqrasiya siyasəti", Böyük Britaniyanın sərhəd qüvvələrinin nümayəndəsi Amanda Read "Birləşmiş Krallıq sərhəd qüvvələrinin müasir köləliyə qarşı cavab və müdafiə tədbirləri" mövzularında danışıblar.

Məlumat üçün bildirək ki, seminarın ikinci günü "Miqrant qaçaqçılığı və insan alverinə qarşı mübarizə","Həssaslığın müəyyən edilməsi və qiymətləndirilməsi" mövzularını əhatə edən təqdimatlar olacaq. Bu prosesdə hüquqi, siyasi və inzibati çərçivədən danışılacaq, iştirakçılar dəyirmi masa arxasında regionda transmilli cinayətkarlığa qarşı əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi ilə bağlı müzakirələr aparacaqlar.

✍ **Səbuhi HÜSEYNOV**

# Naxçıvandakı tarixi abidələrin qorunması və bərpası bir çox ölkələr üçün nümunədir





***Noyabrın 15-16-da İsveçrə Konfederasiyasının Türkiyə Respublikasındakı səfirliyinin müdafiə məsələləri üzrə, eyni zamanda Gürcüstan və Azərbaycan respublikalarında akkreditə olunmuş ataşşesi Hans Eberhart Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Səfər çərçivəsində qonaq muxtar respublikanın tarixi abidələri, eyni zamanda mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub.***

Naxçıvan Muxtar Respublikasından xoş təəssüratlarla ayrılan diplomat "Şərq qapısı" qəzetinə müsahibəsində deyib: "Muxtar respublikaya səfərim çərçivəsində bir çox tarixi yerləri böyük həvəslə gəzdim. Buradakı muzeylər Naxçıvanın qədim tarixə və zəngin mədəniyyətə malik olduğunun göstəricisidir. Möhtəşəm Əlincəqala isə əzəməti ilə məni valeh etdi. Bu qala xalqınızın mübarizlik rəmzidir. Düşünürəm ki, Naxçıvandakı tarixi abidələrin qorunması, bu cür bərpa edilməsi bir çox ölkələr üçün nümunə olmalıdır. Mənim diqqətimi cəlb edən digər bir məqam isə naxçıvanlıların çox mehriban və gülərüz olmasıdır. Bu səmimiyyətə və qonaqpərvərliyə görə hər kəsə öz minnətdarlığımı bildirirəm".

✍ **Səbuhi HƏSƏNOV**

# Avtonəqliyyat xidməti qış mövsümünə hazırdır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə əhaliyə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi barədə muxtar respublika Nəqliyyat Nazirliyinə də müvafiq tapşırıqlar verilib.***

Bu tapşırıqların icrası diqqətdə saxlanılır, müvafiq tədbirlər görülür. Artıq avtovağzalların qış mövsümünə hazırlığı başa çatdırılıb, istilik sistemləri yoxlanılaraq işlək vəziyyətə gətirilib, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki dəqiqləşdirilərək mövcud çatışmazlıqlar aradan qaldırılıb. Hazırda muxtar respublikada sərnişinlərə xidmət göstərən 135 xətdə 293 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilib.

İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə fəaliyyət göstərən avtobusların da qış ayları ərzində fasiləsiz fəaliyyət göstərməsi üçün tədbirlər görülüb. Oktyabr ayında bu marşrutla Naxçıvandan Bakıya 1069, Bakıdan Naxçıvana isə 986 sərnişin daşınıb.

Avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınmasına, marşrut qrafikinə, avtobusların sürət həddinə nəzarət olunması məqsədilə Naxtel-4G GPS monitorinq izləmə sistemi vasitəsilə avtobusların hərəkəti müşahidə edilir.

**Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti**

# AZƏRBAYCAN BAYRAĞI



Qəlbimdə nur çeşməsi, gözlərimə işıqdır,
Göylərə bəzəkdi o, yerlərə yaraşıqdır,
Ellər ona vurğundur, ellər ona aşiqdir.
Odur qəlbimin odu, odur gözümün yağı,
Azərbaycan bayrağı!

Milyon-milyon oğul var, yolunda candan keçər,
İşığın şüa kimi damardan, qandan keçər,
Tufanlar salam verər, küləklər yandan keçər,
Ayla Gün salamlayar sən ucalan torpağı,
Azərbaycan bayrağı!

Canım yolunda fəda, yolunda qurban olsun,
Sənə bir ox dəyincə, ürəyim şan-şan olsun,
Sənə kəc baxan gözlər qoy tamam al-qan olsun,
Bəzə uca göyləri, üçrəngli göy qurşağı,
Azərbaycan bayrağı!

Odlar yurdu eşqinlə çiçək açır, gül açır,
Şirin dilli körpələr bayraq deyə dil açır,
Şəfəqin hər ölkəyə, hər qitəyə nur saçır,
Dostlar baxıb sevinir, qara geyinir yağı,
Azərbaycan bayrağı!

Yollarına göz dikib hələ aranım, dağım,
Sənin həsrətin çəkir nə vaxtdır Qarabağım,
Çox çəkməz ucalarsan o yerlərdə bayrağım,
Öpüb salamlayarsan o cənnət Qarabağı,
Azərbaycan bayrağı!

**Asim YADİGAR**

## Dədə Qorqud abidəsi
## milli kimliyimizə ucaldılan abidədir

***Naxçıvan şəhərinin "Təbriz" küçəsində ucaldılan ulu Dədə Qorqudun əzəmətli abidəsi muxtar respublikamıza gələn qonaqların da, yerli sakinlərin də sevimli ziyarət məkanına çevrilib. Dədə Qorqud Türk dünyasının ortaq dəyəri olduğu üçün, xüsusilə Türkiyədən, İrandan, Orta Asiya ölkələrindən gələn qonaqlar bu abidəni xüsusi ehtiramla yad edir, önünə gül-çiçək dəstələri qoyurlar.***



Ümumiyyətlə, şəhərimizdə ucaldılan hər bir abidənin öz ruhu, öz səsi vardır. Əgər şəhərin bir səmtində xalq qəhrəmanı Babək at üstündə əlində qılınc düşmənlərə meydan oxuyursa, o biri tərəfində Koroğlu Qıratın belində xalqımızın qəhrəmanlıq tarixini dünyaya tanıdır. Dədə Qorqud abidəsi isə xalqımızın saza, sözə, tarixi keçmişimizə verdiyi dəyərin bariz nümunəsidir. Müəllifi Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərov olan abidənin hündürlüyü 5 metrdən çoxdur. Postamentin üzərində əlində qopuz tutmuş Dədə Qorqud dərin düşüncəyə qərq olmuş halda təsvir edilib. Abidə 1999-cu ildə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə yaradılıb.

*Alp ərə qorxu vermək eyib olar, sayıq olan darda qalmaz.*

Dədə Qorqud söylədiyi bu sözlərlə insanları doğru yola, haqq yoluna səsləyir. Əminliklə demək olar ki, yaradılan bu abidə təkcə bir memarın sənət əsəri deyil, sinəsi sözlə dolu olan bir elin, bir yurdun ulu keçmişinə hörmətin ifadəsidir. Sazı əlində, sözü isə qəlbində olan Dədə Qorqud keçmişimizi xatırladan müdrik söhbətləri ilə bizlərə nəsihət verir. Abidəyə tamaşa edənlər ulu əcdadımız Dədə Qorqudun fikir dünyası ilə üz-üzə qalır, bu nurani el ağsaqqalının qəlbinin dərinliklərində yaşatdığı keçmişimizi oxumağa çalışırlar. Dədə Qorqud da sanki buna biganə qalmır, oğuz igidlərinin nərəsindən, Qazan, Beyrək, Qanturalı, Buğac, Dəli Domrul kimi igidlərin qəhrəmanlığından, Burla xatın, Banuçiçək, Selcan xatın kimi qadınların sadiq, vəfalı olmasından söhbət açır, Şöklü Məlik, Qara Məlik kimi düşmənləri, ailə içinə nifaq salan Aruz kimi xəyanətkarları pisləyir. Bizi bu cür təhlükəli və bədniyyətli insanlara qarşı tədbirli olmağa çağırır.

Hər gün Dədə Qorqud abidəsinin yaxınlığından keçən insanlar bu abidəyə baxdıqca uzaq keçmişimizə səyahət edirlər. Gün ərzində bu meydanda saatlarla əyləşib memarlıq incisini izləyənləri görmək olur. Onlar el ağsaqqalının fikir dünyasının incilərini yada salır, keçmişimizə bir anlıq da olsa, səfər edirlər.

*"Kitabi-Dədə Qorqud" bizim hamımızda böyük iftixar hissi yaradır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" bütün türkdilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə, Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik".*

Bu fikirlər 2000-ci il aprel ayının 9-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş rəsmi qəbulda ümummilli liderimiz Heydər Əliyev tərəfindən səsləndirilib.

Doğma diyarımızda həyata keçirilən quruculuq tədbirlərinə xas olan spesifik xüsusiyyətləri Dədə Qorqud meydanında da ilk anda görmək olar. Yəni qədimliklə müasirliyin vəhdəti burada da qorunub. Bir tərəfdə "Təbriz" mehmanxanası yerləşir. Bir tərəfdə isə ulu tariximizin canlı yadigarı – XVIII əsr Şərq memarlığının incilərindən biri olan "İsmayılxan hamamı" adlanan tarixi-memarlıq abidəsi yüksək zövqlə, ilkinliyi tamamilə saxlanılmaqla bərpa olunub. Bu meydanda görülən işlərin ən əhəmiyyətlisi isə Dədə Qorqud abidəsinin yenidən işlənməsidir. İndi abidə daha əzəmətli, daha möhtəşəm görkəm alıb. Ümumilikdə, burada aparılan işlər tariximizə göstərilən hörmət və ehtiramın ifadəsidir.

**Nail ƏSGƏROV**

*İdman*

## İdmançılarımız beynəlxalq turnirin mükafatçısı olublar




Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələri Ukraynada keçirilən beynəlxalq turnirdə iştirak ediblər. Belə ki, Dnepr şəhərində təşkil olunan "Dnepr Open" turnirində idmançılarımız uğurlu çıxışları ilə yadda qalıblar.

14-15 yaşlı idmançıların mübarizəsində muxtar respublikanı Aslan İsmayılov təmsil edib. 70 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan idmançımız bürünc medal qazanıb. 18 yaşlı idmançıların mübarizəsində isə Sərcan Məmmədov eyni uğuru təkrarlayıb. O, 55 kiloqram çəki dərəcəsində bu uğura imza atıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

## Daha bir idmançımız ölkədaxili turnirdə qələbə qazanıb

***Bakı şəhərindəki Şağan Olimpiya-İdman Kompleksində Braziliya ciu-citsu üzrə Bakı kuboku keçirilib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən keçirilən yarışda 180-dən çox idmançı mübarizə aparıb.***

Keçirilən yarışda Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının idmançısı Fərid Məhərrəmov iştirak edib. O, 45 kiloqram çəki dərəcəsində 12-13 yaş qrupu idmançılar arasında bürünc medal qazanıb.

Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən yarışın mükafatçısı olan idmançımız diplom və medalla təltif edilib.

**Ceyhun MƏMMƏDOV**

## Uşaqların asudə vaxtları səmərəli keçir

***Naxçıvan Muxtar Respublikası M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında sağlamlıq imkanları məhdud uşaqlara tanınmış şairə-dramaturq Kəmalə Ağayevanın "Göyçək Fatma" tamaşası göstərilmişdir.***

Tamaşada cərəyan edən hadisələr məişətdə baş verən münaqişələr üzərində qurulmuşdur. Kiçik bir ailədə baş verən münaqişə getdikcə böyüyür, bütün xeyirxah qüvvələr bu ədalətsizlik əleyhinə çevrilir. Fatma gözəl və nəcib insani keyfiyyətlərə malikdir. Lakin bu gözəllik, nəciblik anası öldükdən sonra ona fəlakət gətirir. Tamaşanın nikbin sonluqla bitməsi xeyrin şər qüvvələr üzərində qələbəsi kimi səslənir.

Tamaşada Göyçək Fatma rolunu gənc aktrisa Ləman Əhmədova canlı və təbii təqdim edir. Aktrisalar Ulduz Süleymanova (ögey ana), Vəsmə Quliyeva (ögey bacı) balaca Fatmanın taleyinə acımayan, ona əzab verən personajlardır.



Teatrın aktyoru İlqar Babayevin Qarı nənə obrazı xüsusilə maraqlıdır. Aktyor olduqca təbii təsir bağışlayır.

Aktyorlar İlham Babayev (İnək), Süleyman Süleymanov (Xoruz) isə tamaşada xeyir qüvvələri təmsil edirlər.

Tamaşanın quruluşçu rejissoru, teatrın direktoru və bədii rəhbəri Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbov, quruluşçu rəssamı Rəfael Qədimov, bəstəkarı Əli Məmmədovdur.

Tamaşa uşaqlara xoş əhval-ruhiyyə bəxş edib.

**Əli RZAYEV**

### İtmişdir

Naxçıvan şəhəri, Əzizbəyov küçəsi 83-də yaşayan Məmmədova Sona Zalxan qızının övladları Yanar, Kübra və Arzu Əliyevlərin adına verilən MH-0031601 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

### Bildiriş

"Naxçıvan Media" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi adı dəyişdirilərək "Nihad-2007" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 936